LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

Yüksək keyfiyyətli təhsil vasitəsilə Avropa siyasəti barədə biliklərin artırılması – Aİ Şərq Tərəfdaşlığı vətəndaşları üçün Avropa Kollecinin Natolin kampusunda təqaüd sxemi



İcra müddəti: 27.08.2021 - 17.12.2026

ŞT ölkələri:

Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

Aİ-nin maliyyə yardımı: € 1 567 010

Ümumi büdcə: € 2 287 010

İcraçı təşkilat(lar):

College of Europe, Natolin

Internet səhifəsi: euneighbourseast.eu/topics/youth/

Layihənin təsviri:

Layihənin məqsədi 2021-2024 illərində Avropa Kollecinin Natolin kampusunun Fənlərarası Avropaşünaslıq üzrə bir illik magistr proqramına benefisiarların çıxış imkanını artırmaqla Şərq Tərəfdaşlığı ölkələrində gənclər arasında Avropa siyasəti və idarəçiliyi barədə biliyin təkmilləşdirilməsidir.

Avropa Kollecində təhsil almaq fürsətini təşkil etməklə, layihə gəncləri demokratik proseslərdə iştirak etmək, fəal vətəndaş olmaq və əmək bazarında uğur qazanmağa stimullaşdırır.

Şərq Tərəfdaşlığına üzv ölkələrin gənc vətəndaşları tarixi malikanə və təbiət qoruğu məkanında yerləşən, hər il 30 ölkədən çox 130-a yaxın tələbəni qəbul edən Avropa Kollecinin Natolin kampusunda Fənlərarası Avropaşünaslıq üzrə magistr proqramı üçün təqaüd almaq imkanını əldə edəcəklər.

Bu təhsil proqramı karyera və peşəkar inkişaf bacarıqlarını, siyasi proseslərdə iştirak etməni, dəyişikliklərə uyğunlaşmanı, dil biliklərini təkmilləşdirəcək və çoxsaylı şəbəkələşmə imkanları yaradacaq.

Gözlənilən nəticələr:

- EU4Youth təqaüdü alan tələbələrin 75%-i Avropa Kollecinin Natolin kampusunda Avropaşünaslıq üzrə təhsil proqramını (tam təhsil dövrünü) uğurla bitirəcək ;
- 2027-ci ilə kimi EU4Youth təqaüdü alan məzunların ən azı 60%-i öz Şərq Tərəfdaşlığı ölkələrində sosial-iqtisadi inkişafına töhfə verəcək.